**Noyabr ayında Bakıda keçirilən COP29 sammiti iqlim dəyişmələri ilə mübarizə və dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün mühüm qərarların qəbul edilməsi ilə yadda qaldı. Sammitin ən diqqətçəkən qərarlarından biri karbohidrogen ehtiyatlarından istifadənin azaldılması, ətraf mühitin çirklənməsinin qarşısının alınması və alternativ enerji mənbələrinin genişləndirilməsi oldu. Bu qərar planetimizin qorunması üçün mühüm bir yol xəritəsi kimi qəbul edilir.**

# "Yaşıl enerji" potensialı ilə gələcəyə baxış



Artıq bir çox ölkə təmiz enerji istehsalında əhəmiyyətli irəliləyişlər əldə edib. Günəş, külək və digər bərpaolunan enerji mənbələrinin istifadəsi hər il sürətlə artır. Bu proses həm ətraf mühitin qorunmasına töhfə verir, həm də ölkələrin enerji təhlükəsizliyini gücləndirir. Bərpaolunan enerji sahəsində böyük potensiala malik ölkələr sırasında Azərbaycanın xüsusi yeri var. Rəqəmlərə nəzər yetirdikdə ölkəmizin bu sahədə geniş imkanlara malik olduğu daha aydın görünür. Azərbaycanın bərpaolunan enerji mənbələrinin texniki potensialı quruda 135 QVt, dənizdə isə 157 QVt həcmində qiymətləndirilir. Bu rəqəmlər yalnız texniki imkanları deyil, həm də ölkənin gələcək enerji siyasətinin güclü təməllər üzərində qurulduğunu göstərir. Daha konkret desək, bərpaolunan enerji mənbələrinin iqtisadi potensialı 27 QVt təşkil edir.

Yeri gəlmişkən, Baş nazir Əli Əsədov Milli Məclisin plenar iclasında çıxışı zamanı bildirdi ki, ölkəmizin "yaşıl enerji" mənbəyi kimi Avropanın aparıcı tərəfdaşlarından birinə çevrilməsi əsas hədəflər sırasındadır. 2022-ci ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış Saziş məhz bu məqsədlərə xidmət edir: "Hökumət 2030-cu ilədək enerji balansında bərpaolunan enerji payının 30 faizə yüksəldilməsini planlaşdırır. Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları "yaşıl enerji" zonaları elan edilib. "Yaşıl keçid" və bərpaolunan enerji sahəsində xarici tərəfdaşlarımızla birgə həyata keçirdiyimiz layihələr, həmçinin ikitərəfli və çoxtərəfli sazişlər hökumətin "yaşıl gündəliy"inin əsasını təşkil edir. Prezidentin tapşırıqlarına uyğun olaraq Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir".

Azərbaycan zəngin karbohidrogen ehtiyatlarına və dünya miqyasında tanınan enerji ixracatçısı statusuna malik olmasına baxmayaraq, təmiz enerji sahəsinə böyük əhəmiyyət verir. Ölkəmizin strategiyası yalnız daxili enerji tələbatını qarşılamaq deyil, həm də bərpaolunan enerji sahəsində qlobal bazara çıxış əldə etməkdir. Bu yanaşma Azərbaycanın beynəlxalq enerji xəritəsində yeni bir lider olaraq mövqeyini gücləndirir. Təmiz enerji istehsalını genişləndirmək və dünyaya "yaşıl enerji" ixrac etmək hədəfi Azərbaycanın dayanıqlı inkişaf prinsiplərinə sadiqliyini bir daha sübut edir. COP29 sammitində qəbul edilən qərarlar isə bu strategiyanın həyata keçirilməsi üçün möhkəm əsas yaradır.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqları əsasında ölkəmizin dinamik inkişafı, artan əhali sayı və sənayeləşmə prosesləri nəzərə alınaraq 2025-ci il üçün elektrik enerjisinə olan tələbatın 25-28 milyard kilovat/saat, ixrac potensialının isə 1,8 milyard kilovat/saat həcmində olacağı proqnozlaşdırılır. Bu böyük enerji ehtiyacını qarşılamaq üçün bir sıra mühüm layihələr həyata keçirilir. Bu yanaşma ölkəmizin enerji təhlükəsizliyinin təmin olunmasında və ixrac imkanlarının genişləndirilməsində mühüm rol oynayır. Azərbaycanın enerji sektoru ənənəvi potensialla yanaşı, bərpaolunan enerji mənbələrindən də istifadə etməklə qlobal ekoloji çağırışlara cavab verməyə davam edir.

Azərbaycanın enerji keçidi təkcə külək və günəş enerjisi ilə məhdudlaşmır. Ölkə bioyanacaq və hidroenergetika kimi digər təmiz enerji mənbələrini də geniş miqyasda inkişaf etdirmək niyyətindədir. Qeyd etdiyimiz kimi, 27 giqavatlıq iqtisadi potensiala malik Azərbaycan qlobal "təmiz enerji" sənayesində önəmli aktor olmaq üçün ciddi addımlar atır. Bu strategiya yalnız daxili enerji tələbatını ödəməklə kifayətlənmir, həm də beynəlxalq iqlim məqsədlərinə uyğun olaraq regional və qlobal səviyyədə dayanıqlı təsirə sahibdir və Azərbaycanın dünyada məsuliyyətli bir enerji tərəfdaşı kimi mövqeyini daha da möhkəmləndirir.

Xüsusilə günəş enerjisi sahəsindəki təşəbbüslər Azərbaycanın təmiz enerji sektorundakı gələcəyinin necə ümidverici olduğunu göstərir. Bu il COP29 çərçivəsində Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) dəstəyi ilə həyata keçirilən mühüm layihələrdən biri Qobustan Günəş Elektrik Stansiyasının inşası üzrə hərracın uğurla tamamlanması oldu. 100 MVt gücündə olması planlaşdırılan Qobustan Günəş Elektrik Stansiyasının 2027-ci ildə istismara verilməsi nəzərdə tutulur. Nəhəng layihənin icrası nəticəsində hər il 260 milyon kilovat-saat elektrik enerjisi istehsal ediləcəyi gözlənilir. Lakin stansiyanın əhəmiyyəti təkcə istehsalda deyil, həm də ekologiyaya göstərəcəyi müsbət təsirdədir. Layihənin icrası nəticəsində hər il 57 milyon kubmetr təbii qaza qənaət ediləcək və atmosferə atılan karbon emissiyalarını 124 min ton azaltmağa imkan yaradacaq.

Azərbaycanın ekoloji məsuliyyət və enerji təhlükəsizliyi sahəsindəki liderlik mövqeyini daha da gücləndirir. Günəşdən güc alan bu cür layihələr yalnız bugünkü ehtiyacları qarşılamaqla, həm də gələcək nəsillər üçün daha təmiz və sağlam bir mühit formalaşdırır.

Ölkəmizin enerji siyasəti ekoloji prinsiplərə əsaslanaraq həm ölkə daxilində, həm də qlobal səviyyədə dayanıqlı inkişaf məqsədlərinə xidmət edir. Qobustan Günəş Elektrik Stansiyası bu siyasətin canlı təcəssümü olmaqla yanaşı, "yaşıl enerji" istehsalı və ixracında regional liderliyə daha da yaxınlaşdırır. Enerji keçidi həm texnologiya, həm də təbiət arasında harmoniya yaradır. Bununla yanaşı, ekoloji mühitin qorunmasında da fəal iştirak edir. COP29 çərçivəsində irəli sürülən təşəbbüslər Azərbaycanın təmiz enerji sahəsindəki səylərinin qlobal miqyasda necə qəbul edildiyini bir daha sübut etdi. Belə təşəbbüslər Azərbaycanın gələcəyini daha işıqlı, dünyanı isə daha yaşıl edir. Azərbaycanın günəş enerjisindən aldığı güc, yalnız enerji təminatının deyil, həm də qlobal ekoloji hərəkatın bir parçasına çevrilmək əzmindən xəbər verir. Gələcəyin təmiz və davamlı enerjisi üçün bu addımlar Azərbaycanın dayanıqlı inkişaf strategiyasını daha möhtəşəm şəkildə tamamlayır.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) çərçivəsində Azərbaycanın bərpaolunan enerji sahəsindəki növbəti strateji addımı təqdim edildi. Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin pavilyonunda baş tutan tədbirdə Azərbaycanın Hidrogen üzrə Milli Strateji Baxış sənədi böyük maraqla qarşılandı. Sənəddə bütün əsas istiqamətlər, o cümlədən ətraf mühit, nəqliyyatda və neft-kimya sənayesində, həmçinin dekarbonizasiyası çətin olan sahələrdə (sement, polad) istifadəsi kimi məsələlər nəzərə alınmış və iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində hazırlanmış sənədlərlə, 3-cü Milli Səviyyədə Müəyyən edilmiş Töhfələr sənədi ilə uyğunluq təşkil edir. Digər tərəfdən, Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizə istiqamətində konkret addımlarını bir daha nümayiş etdirir. Hidrogen enerjisindən istifadənin genişləndirilməsi, həmçinin bu sahədə beynəlxalq sənədlər və öhdəliklərə uyğunluq təmin edilib, dayanıqlı inkişaf hədəflərinə töhfə verməyi qarşıya məqsəd qoyur. Azərbaycanın hidrogen üzrə strategiyası ölkəmizi yalnız regional enerji lideri kimi deyil, həm də qlobal "yaşıl enerji" hərəkatının əsas iştirakçılarından birinə çevirmək niyyətindədir. COP29 çərçivəsində təqdim edilən bu sənəd ölkənin hidrogen texnologiyalarına investisiya etməklə bərpaolunan enerji mənbələrinin istifadəsini artırmaq və ən əsası, karbon emissiyalarını azaltmaq istiqamətində ciddi irəliləyişlər əldə edəcəyini göstərir.

Qeyd edilən təşəbbüslər, Azərbaycanın beynəlxalq səviyyədə təmiz enerji sahəsində liderliyə iddialı olduğunu sübut edir. Hidrogen enerjisi Azərbaycanın "yaşıl gələcək" strategiyasının parlaq nümunəsi kimi, ölkənin iqtisadi inkişafını və ekoloji davamlılığını təmin edəcək. Azərbaycan yalnız enerji ixracatçısı deyil, həm də dayanıqlı enerji mənbələrinin təşviqçisi kimi yeni bir dövrə qədəm qoyur. Hidrogen enerjisi isə bu dövrün ən mühüm simvollarından birinə çevrilir.

**Nurlan ABDALOV,**
**"Respublika".**